**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**1 dekabr 2025-ci il** **10-1/3-1-224/2025**

**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü, sərbəst auditor Aydınlı Məhəmməd Aydın oğlu barəsində intizam və tənbeh tədbirlərinin görülməsinə dair**

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2025-ci il 03 noyabr tarixli 2-2-024/2-224401/2025-1033 nömrəli təqdimatına və Auditorlar Palatasında 2025-ci il 24 noyabr tarixində keçirilmiş iclasın protokoluna (təqdimat və protokol əlavə olunur) uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Aydınlı Məhəmməd Aydın oğlu barəsində intizam və tənbeh tədbirlərinin görülməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2025-ci il 03 noyabr tarixli 2-2-024/2-224401/2025-1033 nömrəli təqdimatına əsasən "Proymed Espana Corp" MMC-də apardığı auditor yoxlaması zamanı yol verdiyi qanun pozuntularına görə, habelə Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnamənin 6-cı “Töhmət tənbehi” maddəsinin 13-cü “Üçüncü şəxslərə ödəniş və ya hər hansı fayda vermək və ya vəd etməklə iş alınması” bəndinə uyğun olaraq sərbəst auditor Aydınlı Məhəmməd Aydın oğluna şəxsi işinə qeyd edilməklə töhmət elan edilsin.

2. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bu əmrin 1-ci bəndinə uyğun olaraq tənbeh tədbiri barədə

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/PyzstJwsPhWaW3D77jTUeEMGA4AFX4hCsxgV5Y5wH6M%3D

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə məlumatın göndərilməsi təmin edilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.

4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin qeyd edilən auditora göndərilməsini təmin etsin.

5. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**